“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN

Qəzet 1932-ci ildən çıxır № 5-6 (6871-6872) 10 may 2023-cü il



## Heydər Əliyev - 100

# DÖVLƏT(ÇİLİK)İMİZİN XİLASKARI VƏ QURUCUSU

**Dünya şöhrətli siyasətçi, məşhur ictimai-siyasi xadim Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi şərəfinə ölkə prezidentinin Sərəncamına əsasən 2023-cü il Azərbaycanda "Heydər Əliyev ili" elan olunmuşdur. Məhərrəm Məmmədovun 2003-cü ildə Heydər Əliyevin 80 illik yubileyi işığında yazdığı “III Respublika: Milli inkişaf modeli və strategiyası" (“Elm", 2003) kitabına Milli Məclisin üzvü Aydın Mirzəzadənin və Dövlət İdarəçilik Akademiyasının dosenti Lətifə Məmmədovanın yazdıqları ön sözdən oxuyuruq:**



“Tarixi şəxsiyyətlər daha artıq hörmətə layiqdirlər - onların realist portretləri yaradılmalı və bu portretlər, hətta ən tələbkar, ən tənqidi zəka sahiblərinin tələblərini də qane etməlidir. Bir sözlə, bizlərdən hər birimizin və hamımızın həqiqəti bütün çalarları ilə dərk etməyimiz nə qədər çətin proses olsa da, bu, həyati zərurətdir. Müəllif haqlı olaraq göstərir ki, Prezident Heydər Əliyevin mənəvi irsi müasir Azərbaycan cəmiyyəti üçün çox böyük əhəmiyyət kəsb edir. President çıxışlarının və nitqlərinin mətni, bu mətnlərə xas olan novatorluq münasibəti diqqətlə tədqiq və şərh edilməlidir.

Ölkə Prezidentinin fenomenal şəxsiyyəti, onun Azərbaycanı beynəlxalq birliyə qovuşdurmaq naminə, Azərbaycan dövlətçiliyini möhkəmləndirmək naminə, dövlətlərarası münasibətlərin bütün spektrində keyfiyyətcə yeni ab-hava yaradılması naminə yeritdiyi çevik və praqmatik siyasət artıq xeyli vaxtdır ki, bütün dünyada siyasətçilərin, ictimaiyyətşünasların, filosofların, tarixçi və sosioloqların diqqətini cəlb edir” (səh. 5-6).

Haqlı olaraq hələ 20 il bundan əvvəl söylənmiş “tarixi şəxsiyyətlərin realist portretlərinin yaradılması” zərurəti haqdakı fikir bu gün də, sabah da öz hökmündə - qüvvəsində qalır. Çünki tarixin yetirdiyi zəngin düha sahibləri olan şəxsiyyətlərin işıqlı həyatları öyrənilməli, bu günkü və gələcək nəslə örnək həyat yolu olaraq qədərincə çatdırılmalıdır.

Bu, hər şeydən öncə, tarixi şəxsiyyət olaraq Heydər Əliyevin dövlətimizin və xalqımızın yolundakı misilsiz xidmətlərinin qədirbilənliyinin ifadəsi hesab olunmalıdır. Çünki ”Heç kim unudulmur, heç nə yaddan çıxmır” prinsipi ilə götürdükdə, xalqımızın öz dahi övladına qarşı sonsuz sevgi və ehtiramı həm də onun vaxtaşırı olaraq xatırlanması və rəhmətlə anılmasında təzahürünü tapır. Tarixini, keçmişini unudanı gələcək topa tutar kəlamının mahiyyətinə varsaq, bir daha onu deyərik ki, əgər keçmişimizi (çox uzaqda olmayan XX əsri və XXI əsrin əvvəllərini) yadımıza salsaq, öyrənsək, onda biz Ümummilli Liderimiz Heydər Əliyevin dövlət(çilik)imiz və xalqımız qarşısındakı fədakar xidmətlərinin əvəzolunmazlığını görərik. Daxili (vətəndaş) və xarici (yadelli düşmənlərimizin) müharibələr ölkəmizi məhv olmaq təhlükəsi ilə üzləşdirmişdi.

Məhz bu ağır illərdə tarix (ulu Tanrı) tərəfindən xalqımıza bəxş olunmuş xilaskar qəhrəman kimi Heydər Əlirza oğlu Əliyev özünün qətiyyətli siyasi iradəsini nümayiş etdirdi. Vətənimizi, xalqımızı tarixin xaotik burulğanından xilas etdi. Qeyd edim ki, ayrı-ayrı qələm adamları vaxtaşırı olaraq bu haqda bədii və publisistik kitablar çap etdirmişlər.

İkincisi, Heydər Əliyevin tarixi-siyasi irsinin xatırlanmasının, araşdırılmasının və öyrənilməsinin zəruriyyəti ondadır ki, hazırkı və gələcək nəsillər bu titanik şəxsiyyətin hamı üçün örnək olan mübarizələrdə keçən ömründən xəbərdar olsunlar. Heydər Əliyevin zəngin dühası, dönməz xarakteri, siyasi iradəsi, mənəvi-iradi keyfiyyətlərini əxz edib mənimsəsinlər. ona görə ki, dörd bir yanımız düşmənlərlə əhatə olunan ölkəmizi, eləcə də uzaqdan-yaxından - yəni uzaq və yaxın ölkələrdən olan düşmənlərimizin dişlərini qıcayıb, təhdid elədiyi ölkəmizi hər an daxili düşmənlərdən (satqınlardan, xainlərdən) və xarici düşmənlərdən qoruya bilməyimiz üçün öyrənməliyik Heydər Əliyev yolunu, həyatını, şəxsiyyətini. Bəli, hər birimizin ürəyimizdə bir Heydər Əliyev işığı yanmalıdır, hər birimizin düşüncəmizdə, əqidəmizdə, xarakterimizdə, ruhumuzda bir yenilməz qətiyyətli xarakterə, sabit siyasi iradəyə məxsus Heydər Əliyev gücü, inamı, əqidəsi yetişib formalaşmalıdır.

Bəli, Heydər Əliyevin tarixi-siyasi irsinin öyrənilməsi birincisi, Ulu öndərə ümumxalq sevgisinin ifadəsi olaraq - xalqın öz övladına qədirbilənlik hissinin nümayişi olaraq vacibdirsə, ikincisi, hər birimizə dahi şəxsiyyətin həyatını öyrənib-bilməklə özümüzün daxili dünyamızda bir Heydər Əliyev xarakteri formaşlaşdıra bilməyimiz üçün zəruridir. Heydər Əliyevi öyrənməyimiz hər bir zaman özümüzü daxili və xarici təhlükələrdən qorumaq kimi vətəndaşlıq instinktinə sahib olmağımız deməkdir. Necə ki, döyüşlərə yollanarkən hər birimizin içindəki bir yenilməz Qoç Koroğlu ruhu bizi qələbəyə ruhlandırır, həvəsləndirir, eləcə də ölkəmizin, xalqımızın başının üstünü bədxah qara qüvvələr alan vaxtlarda, özümüzü toparlayıb, Heydər Əliyevə xas olan siyasi taktiki gedişlər yolu ilə hərəkət edib, özümüzü - dövlət(çilik)imizi və xalqımızı bu bəlalardan qorumaq ruhunda, gücündə olmalıyıq. Başqa sözlə, içimizdə mif dünyasından gələn döyüşkən və yenilməz Qoç Koroğlu ruhu yaşatdığımız kimi, eləcə də daxili-mənəvi dünyamızda tarixi reallıqdan gələn Ulu Öndər, Ümummilli lider Heydər Əliyev xarakteri yaşatmalıyıq. Qoç Koroğlu mifi də, Heydər Əliyev şəxsiyyəti də - hər ikisi xalqımızın qəhrəmanlıq simvoludur, yenilməzlik rəmzidir. Mif(ik obraz) də bizimdir, tarix(i şəxsiyyət) də bizimdir - hər ikisi qanımızda, ruhumuzda olmalıdır. Silah icad olunanda, tüfəngə baxıb, kişilik zəmanəsi getdi deyib, qol zoruna üstünlük verən Qoç Koroğlunun nəvələri olan qəhrəman igidlərimiz məhz 44 günlük ikinci Qarabağ müharibəsində füsunkar Şuşamızı elə Qoç Koroğlusayağı qol gücünə - düşmənlə əlbəyaxa döyüşərək döyüşdə son nöqtəni qoydular. Düşmənlərimizə Qoç Koroğlu zamanındakı kimi qolumuzun da gücünü nümayiş etdirdik, müasir dövrün silahlarını idarə edən çevik, yetkin ağlımızın - siyasi taktikamızın, hərbi qüdrətimizin də gücünü göstərdik. Bu ikinci amil məhz tarixin bizim üçün yetişdirdiyi tarixi şəxsiyyət olan Heydər Əliyevin uzaqgörən dühasının nəticəsidir. Bizi daxildən və xaricdən parçalamaq istəyən düşmənlərimizi mat qoyan Heydər Əliyev müəyyən siyasi taktiki gedişlər yolu ilə ordu quruculuğu, xalq - hakimiyyət birliyi və s. məsələləri yoluna qoydu, düşmənlərimizi məğlub etmək üçün strateji hədəflər müəyyənləşdirdi, özünün cismani ömrü yetmədisə də, onun cismani və mənəvi ömrünün layiqli davamçısı qəhrəman sərkərdə İlham Əliyevin komandanlığı və siyasi iradəsi hesabına düşmənlərimizə həddini göstərdik. Bəli, məhz nəyin hesabına qələbəyə nail olduq? Ulu Öndər Heydər Əliyevin qoyduğu yolu uğurla davam etdirməyin bəhrəsi olaraq!

Bax bu məntiqlə də bir daha yuxarıdakı fikrimə dönürəm: Heydər Əliyevin zəngin və keşməkeşli həyat fəaliyyətinin öyrənilməsi formalizmə xidmət etməməlidir, reallığa əsaslanaraq keçmişimizin öyrənilməsi zəminində yaxın və uzaq gələcəyimizin hədəflərini, siyasi gedişlərimizi müəyyənləşdirməyimizə hesablanmalıdır. Çünki bizi düşmənlərimizin saldığı tarixin girdabından Ulu Öndər Heydər Əliyevin fenomenal zəkası xilas etdi və Yeni Azərbaycan Partiyası ətrafında xalqı səfərbər etməklə yeni Azərbaycan dövlətini qurdu. Biz bu tarixi xidmətləri unutmamalı, onun ruhu qarşısında ehtiramla hərəkət etməli və gələcək inkişaf yolumuzu müəyyənləşdirməliyik!

**Şakir ALBALIYEV,**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi*

# PREZİDENT İLHAM ƏLİYEV CƏBRAYIL RAYONUNA SƏFƏR EDİB



Dövlət başçısı Xudafərin qəsəbəsinin təməlini qoyub, "Azərenerji" ASC-nin "Cəbrayıl" enerji qovşağının açılışında iştirak edib, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olub, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-İmport" MMC-nin, "İmprotex Qarabağ Sənaye Kompleksi" MMC-nin, Şükürbəyli kəndinin təməlini qoyub, Cəbrayıl şəhərində Akademik Mehdi Mehdizadə adına 960 şagird yerlik orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olub, Horovlu kəndinin təməlini qoyub.

## "Heydər Əliyev ili"nə həsr olunmuş rəsm və əl işləri sərgisi

05 may 2023-cü il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin və Rayon Təhsil Sektorunun birgə təşkilatçılığı ilə rayonun 15 saylı tam orta məktəbində Cəbrayıl qəsəbələrində fəaliyyət göstərən ümumtəhsil məktəbləri şagirdlərinin "Heydər Əliyev ili"nə həsr olunmuş rəsm və əl işlərindən ibarət sərgisi təşkil edilmişdir. Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavinləri Tapdıq Nəsirov, Fəridə İbayeva, Təhsil Sektorunun müdiri Zamiq Qurbanov, məktəb direktorları, mədəniyyət işçiləri və məktəblərin pedaqoji kollektivləri iştirak etmişlər.






Tədbirə Dövlət Himninin səsləndirilməsi, Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Çıxış edənlər böyük siyasi iradəyə, sarsılmaz əqidəyə, tükənməz dövlət idarəçiliyinə malik Heydər Əliyevin həyat və fəaliyyətindən söz açıb, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə istedadlı şagirdlərin üzə çıxarılması məqsədilə görülmüş işlərdən, gənclərə göstərilən diqqət və qayğıdan danışdılar.

Uşaqların rəsm və əl işlərindən ibarət sərgiyə baxış keçirildi, şagirdlərin ifasında Ulu Öndərə həsr olunmuş şeirlər səsləndirildi. Xatirə şəkilləri çəkdirildi.

**"XUDAFƏRİN"**

## Bakıxanov qəsəbəsində səyyar görüş-qəbul keçirilib



**Aprelin 25-də Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Bakıxanov qəsəbəsində məskunlaşan cəbrayıllılarla səyyar görüş-qəbul keçirib. Səyyar qəbulda rayon İcra Hakimiyyəti başçısı aparatının məsul əməkdaşları, ərazidə məskunlaşan rayon əhalisi iştirak ediblər.**



Görüşdə çıxış edən rayon İcra Hakimiyyəti başçısı Kamal Həsənov görüş iştirakçılarını salamlayıb. Bildirib ki, cənab Prezidentin tapşırığına əsasən yerlərdə əhali ilə səyyar görüş-qəbulların keçirilməsindən əsas məqsəd hazırkı mövcud vəziyyəti rayon sakinlərinin dilindən öyrənərək həlli mümkün olan məsələləri yerində həll etmək, ehtiyac olduğu halda aidiyyəti təşkilatlar qarşısında məsələ qaldırmaqdır. İcra başçısı həmçinin rayona qayıtmaq istiqamətində dövlət miqyasında aparılan məqsədyönlü bərpa -quruculuq işlərindən danışıb. Yaxın gələcəkdə doğma Cəbrayılımızda yaşayıb fəaliyyət göstərəcəyimizə əmin olduğunu bildirib.

Səyyar görüş-qəbulda iştirak edən Cəmil Əhmədov adına şəhər tam orta məktəbin direktoru Sirac Sadıqov, müəllimlərdən Məhluqə Vəliyeva, Xumar İsmayılova, Gülçin Əhmədzadə, Minə Fətəliyeva, Sabunçu rayon Bakıxanov qəsəbəsində yaşayan məcburi köçkünlərin komendantı Arzu Zeynalova bir sıra məsələlərlə bağlı rəy və təkliflər bildiriblər. Səsləndirilən təklif və problemlər ayrı-ayrılıqda dinlənilib, onların araşdırılması və icrasına nail olmaq məqsədilə görüləcək tədbirlər qeyd olunub, müvafiq tapşırıq və tövsiyələr verilib.

**Xəyal İsmayılova,**
*müəllimə*




"Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində aprelin 27-də YAP Cəbrayıl rayon təşkilatı Biləsuvar rayonunda Cəbrayıl rayon sakinlərinin müvəqqəti məskunlaşdığı 4 saylı qəsəbənin klubunda"Heydər Əliyev irsi Azərbaycanın milli sərvətidir!" mövzusunda tədbir keçirib.



Ümummilli Lider Heydər Əliyevin abidəsi və şəhidlər abidə kompleksi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla anılıb.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev bildirib ki,Müasir müstəqil Azərbaycanın memarı və qurucusu-Böyük Azərbay canlı,Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyini Respublikamızın hər yerində,bizə dost olan xarici ölkələrdə qeyd edilir. Ulu Öndərin rəhbərlik dövrü Azərbaycan xalqının tarixi yaddaşına Heydər Əliyev epoxası kimi daxil olmuşdur.Bu dövr Azərbaycanın inkişaf arxitekturasının ən şərəfli səhifələrindən biridir.Hazırda beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qeyd edilən tarixi Zəfərimiz Ulu Öndərin fəaliyyətinin bəhrələridir.Bu dövrün ən böyük uğuru odur ki,Azərbaycan son 32 ildə dövlət müstəqilliyini qoruyub saxlaya bilmiş,onu möhkəmləndirmiş və inkişaf etdirmişdir.Bu qısa zaman kəsiyində Azərbaycan nəinki inkişafın ən düzgün istiqamətlərini müəyyən etmiş,hətta aparıcı ölkələrin böhran yaşadığı bir dövrdə,böhrandan öndə olmağın milli modelini formalaşdıra və dünyaya təqdim edə bilmişdir.

YAP Veteranlar Şurasının üzvü Əli Həsənov çıxışında bildirib,"Heydər Əliyev unikal bir şəxsiyyət idi. O, Azərbaycan dövlətini və xalqını sevməyin əsl nümunəsini ortaya qoymuş ən böyük azərbaycanlı idi. Heydər Əliyevin ölkəyə rəhbərlik etməsi faktı isə dövlət idarəçiliyinin fenomenal nümunəsini ortaya qoydu. Heydər Əliyev elə bir dahi siyasətçi idi ki, Onun düşüncələri ölkə sərhədlərini aşaraq, qlobal səviyyəli idarəçiliyin qurulması qüdrətində idi. Ümummilli Lider xarizmatik bir siyasətçi idi və Onun siyasi rəhbərlik nümunəsi nəinki həmin dövrün insanları, hətta gələcək nəsillər üçün də örnəyə çevrildi.

Milli Məclisin deputatı Ceyhun Məmmədov qəlbi daim vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən danışıb. Qeyd edib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə



uyğun şəkildə uğurla davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində ölkəmiz hərtərəfli inkişaf edib. Rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənov Ulu Öndərin həyat və yaradıcılığından,Azərbaycanın gələcəyindəki mühüm rolundan geniş danışdı.

Sonra Cəbrayıl rayon 1 nömrəli tam orta məktəbin direktoru Şahnazxanım Şükürzadə çıxış etdi.

Tədbirdə Yeni Azərbaycan Partiyası sıralarına yeni qoşulmuş şəxslərə üzvlük vəsiqələri təqdim olunub.Sonra Əli Həsənova 75 illik yubleyi və Azərbaycan Respublikası Prezidentinin "Şərəf" ordeni ilə təltif edilməsi münasibətilə YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev xüsusi təbrik ünvanladı.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı fəxri diplom, fəxri fərman və təşəkkürnamə ilə təltif edildilər.

# Ümummilli Liderin 100 illik yubileyi keçirildi




10 may 2023-cü il tarixdə Cəbrayıl rayonunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə ümumrayon tədbiri keçirilib. Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, YAP fəalları, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mədəniyyət və İstirahət parkında Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə əklil və gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad olunub. Rayon İcra Hakimiyyətinin inzibati binasının foyesində Ulu Öndərin Cəbrayıl rayonuna səfərlərini əks etdirən foto-sərgilərə baxış keçirilib.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Ümummlilli Lider Heydər Əliyevin siyasi fəaliyyəti (1969-2003-cü illər) ilə bağlı geniş məruzə edib. Rayon rəhbəri bildirib ki, bu gün Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli siyasi və dövlət xadimi, müstəqil Azərbaycanın qurucusu, dünyaşöhrətli siyasətçi Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi tamam olur. Bütün dünya Azərbaycanlıları kimi Cəbrayıllılar da bu əlamətdar tarixi gündə böyük şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad edirlər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin ideyalarının təntənəsidir. Azərbaycana rəhbərliyinin hər iki dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafına nail olmuşdur.



1969-1982-ci illər Azərbaycan tarixinə intibah dövrü kimi daxil oldu. Həmin dövrdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikada 250-dən çox zavod, fabrik, istehsal müəssisələri, mühüm infrastruktur obyektləri istifadəyə verildi, 630 min yeni iş yeri açıldı, yeni yaşayış massivləri salındı.

Beləliklə, 1970-ci illərin sonunda Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaqın ən qabaqcıl respublikaları sırasına çıxdı.

Dövlət müstəqilliyinin bərpa edildiyi ilk illərdə bütün sahələrdə dərin tənəzzül yaşayan Azərbaycan böyük təhlükələrlə, hətta müstəqilliyini itirmək və parçalanmaq təhlükəsi ilə üz-üzə qaldı. Belə ağır bir dövrdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi xaos və anarxiyadan qurtardı. Bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı, dövlətçiliyimizi hər cür suiqəsddən, dövlət çevrilişi cəhdlərindən qorudu və ölkəmizi dayanıqlı inkişaf yoluna çıxardı.

Məhz Heydər Əliyevin çox gərgin və genişmiqyaslı fəal diplomatik səyləri nəticəsində dünyanın böyük dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi, Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırıldı.

Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi kursu, başlatdığı nəhəng işlərin icrası onun ən layiqli davamçısı və siyasi varisi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. İndi Azərbaycan dünyada dinamik inkişaf edən dövlətlərdən biridir. Ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildənilə yüksəlməsinə imkan yaradır.

Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qalib və məğrur Azərbaycan xalqı Ümummilli Liderimizin həmişəyaşar ideyaları əsasında 44 günlük Vətən müharibəsində ermənilər üzərində tam qələbə çaldı, Azərbaycanın tarixi torpaqlarını işğaldan həmişəlik azad etdi. İkinci Qarabağ müharibəsində hərbi-siyasi yolla qazanılmış parlaq Zəfər güclü dövlət-güclü ordu konsepsiyasının təntənəsidir. Möhtərəm Prezidentimiz, müzəffər sərkərdə cənab İlham Əliyev ata vəsiyyətini layiqincə yerinə yetirərək Azərbaycan xalqını Ulu Öndərin müəllifi olduğu azərbaycançılıq ideologiyası ətrafında yenidən bir yumruq kimi birləşdirdi.



Azad olunmuş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq işləri heç kəsdən yardım alınmadan Azərbaycanın öz imkanları hesabına sürətlə davam etdirilir, Böyük Qayıdış Proqramı çərçivəsində ilk uğurlu addımlar atılır.



Xalqımız Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir.

Biz cəbrayıllılar Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərini hər zaman yüksək dəyərləndirir, həmişə olduğu kimi, bundan sonra da Ulu Öndərin Azərbaycanda daim yaşayan və qalib gələn ideyalarına sədaqət və inam nümayiş etdirəcəyik. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında daha sıx birləşərək ölkəmizin hərtərəfli davamlı inkişafı üçün var qüvvəmizi əsirgəməyəcəyik.

Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Sonra Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı film nümayiş olundu.

Tədbir Heydər Əliyev adına Mədəniyyət və İstirahət parkında musiqili konsert proqramı ilə davam etdirildi.

# İtkin şəhidlərimiz anıldı

Cəbrayıl Tarix-Diyarşünaslıq Muzeyində 11 aprel 1993-cü ildə Göygədik əməliyyatı zamanı itkin düşmüş şəhid Vahid Balaca oğlu Əliyev, Mais Akif oğlu Verdiyev, Yelmar Rza oğlu Əliyevin xatirəsinə həsr olunmuş ”Qayıdan torpaqlar, qayıtmayan oğullar” adlı ədəbi-bədii tədbir keçirildi.Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyətində Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin böyük məsləhətçisi Abbaslı Abbas, Soltanlı ərazi nümayəndəsinin müavini Hacıyev Fariz, “Xudafərin” qəzetinin baş redaktoru Şakir Albalıyev, “Cəbrayıl şəhidləri”, “Zəfər yolunda” kitablarının




müəllifi Taryel Abbaslı, keçmiş döyüşçülər Akif Sarıyev, Mehman Hüseynov, şəhid ailələri və qazilər, 3 saylı tam orta məktəbin müəllim və şagird kollektivi, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

3 nömrəli Cəbrayıl tam orta məktəbin şagirdləri ədəbi bədii kompozisiya ilə çıxış etmişlər.

# Ulu Öndərin xatirəsi işığında



Şüvəlan qəsəbəsindən olan xeyriyyəçi Hacı İntiqam Atayevin təşkilatçılığı ilə mayın 7-də Xəzər rayonu Mərdəkan Mədəniyyət Mərkəzində Ümummilli Lider Heydər Əliyevin yüzillik yubileyi münasibətilə ədəbi-bədii tədbir keçirildi. Şairə - jurnalist Südabə Sərvinin aparıcılığı ilə keçirilən ”Mən fəxr edirəm ki, Azərbaycanlıyam!” adlı ədəbi-bədii gecədə söz-sənət adamları Ulu Öndərin nəsillərə örnək olan ömür yolundan söhbət açdılar, musiqiçilər vətənpərvərlik ruhlu mahnılar ifa etdilər.

Tədbirdə H.Əliyevin fəaliyyəti ilə bağlı videoçarx da nümayiş olundu.

**Şakir Əlif oğlu Albalıyev**

# Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin xilaskarı, müasir müstəqil Azərbaycanın banisidir

**2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 sentyabr 2022-ci il tarixdə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalayıb.**



Bu Sərəncam Heydər Əliyev şəxsiyyətinə, onun tarixi xidmətlərinə yeni dəyərlər əsasında verilən qiymətdir. Sərəncamda qeyd edildiyi kimi, Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi cəmiyyətin bütün təbəqələrində hədsiz sevinclə qarşılanır, dünya miqyaslı siyasətçi və dövlət xadiminin dövlətçilik ənənələrimizin dirçəldilməsi, yaşadılması və bərpa edilməsi sahəsində misilsiz xidmətlərinə, çağdaş tariximizdə tutduğu müstəsna mövqeyinə xalqımızın və dövlətimizin qədirbilən münasibətinin parlaq təcəssümü kimi qiymətləndirilir. Ulu Öndərin dövlətimiz, xalqımız qarşısındakı xidmətləri hər an, hər gün gözümüz önündədir. Bu qərar bir daha dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin dərindən araşdırılmasına, zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yaradacaq.

Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti, Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir, bundan sonra da neçə-neçə nəsillər bu məktəbdən bəhrələnərək Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcəkdir. Onun fəaliyyətinin hər bir mərhələsi istər Azərbaycanda hakimiyyətinin birinci dövrü (1969-1982), istərsə də müstəqilliyimizin bərpasından sonrakı dövr ayrı-ayrılıqda tədqiqat mövzusudur.

Heydər Əliyevin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, Milli Lider və xalq məhəbbətini qazanan öndər kimi əbədilik qazanması, heç də təsadüfi deyil.

Məhz Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə xalqının iradəsinə tabe olan Heydər Əliyev Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü. Bu, sözün əsil mənasında, "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyib, meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi. Heydər Əliyev öz siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini əsirgəmədən xalqının firavanlığı və dövlətinin müstəqilliyi yolunda yorulmadan xidmətdə olduğunu bir daha sübut etdi.

Ümummilli Lider daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına müstəqil Azərbaycan dövlətini qurdu və möhkəmlətdi. Heydər Əliyev demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərqərar etdi, cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa birdəfəlik son qoydu. Ulu Öndərin 1994-cü ildə imzaladığı Cinayətkarlıqla mübarizəyə yönəlmiş tarixi fərmanı qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı.

Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Heydər Əliyevin müəllifi olduğu 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətin bütün prinsipləri qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olundu, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edildi.

Ölkəmiz müstəqilliyini əldə etdikdən sonra SSRİ-dən miras qalmış, totalitar rejimə xarakterik olan hüquq sistemi və qanunlar sivil və demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat vermirdi. Əsas Qanunun qəbulu ölkədə bütün sahələrdə, o cümlədən hüquqi islahatların hərtərəfli və kompleks həyata keçirilməsinə rəvac verdi və bu məqsədlə müxtəlif komissiyalar yaradıldı. Hüquq sisteminə müstəsna əhəmiyyət verən ümummilli lider Heydər Əliyev Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürərək islahatların qısa müddətdə və mütəşəkkil aparılmasını təmin etdi.

Ulu Öndər prokurorluq orqanlarının rəhbər işçiləri ilə 2000-ci ilin aprelində keçirdiyi görüşdə hüquqi islahatlarla bağlı deyirdi: "Bu islahatları ona görə aparmırıq ki, kimsə bizə deyir, kimsə bunu bizdən tələb edir. Biz özümüz anlamalıyıq ki, "hüquqi, demokratik dövlət qururuq" elan edən prezident gərək onu təmin etsin. Bunu təmin etmək də qanunlarla ola bilər".

Heydər Əliyevin fəaliyyəti nəticəsində müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildikdən sonra məhkəmə-hüquq islahatlarının aparılması daha da sürətləndirilməklə ulu öndərin 1996-cı ilin fevralında imzaladığı fərmanla hüquqi islahatlar üzrə komissiya yaradılmışdır. Komissiya tərəfindən ictimai münasibətlərin müxtəlif sahələrini tənzim edən bir sıra qanunların, o cümlədən prokurorluğun fəaliyyətinə aid müddəaları nəzərdə tutan normativ hüquqi aktların Avropanın aparıcı ekspertlərinin müsbət rəyini almış layihələri hazırlanmışdır. Bu layihələr əsasında qəbul edilmiş "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Polis haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" və digər qanunlar ölkənin hüquq sisteminin formalaşması prosesinə böyük töhfə olmuşdur.

Bundan başqa Ümummilli lider Heydər Əliyev 1998-ci il 28 noyabr tarixdə prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr edilmiş təntənəli yığıncaqdakı tarixi nitqində dediyi "Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma, eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız". kəlamı hər bir prokurorluq işçisinin gündəlik işində bütün bilik, qüvvə və bacarığını səfərbərliyə alaraq əməl etməyə çalışdığı fəaliyyət istiqamətinə çevrilmişdir.

Ulu öndər Heydər Əliyevin respublika prokurorluğunun rəhbər işçiləri ilə 2000-ci il aprelin 26-da keçirdiyi görüş prokurorluq orqanlarının tarixində həlledici əhəmiyyətə malik dönüş nöqtəsi olmuşdur. Məhz bu görüşdə Heydər Əliyevin verdiyi proqram əhəmiyyətli göstərişlərin nəticəsi olaraq, həmin vaxtdan Azərbaycan Prokurorluğu orqanlarında aparılan və bu gün də yeni müstəvidə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşməsi, zəruri normativ-hüquqi bazanın yaradılması, ciddi tələbkarlıq şəraitinin formalaşdırılması, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilmiş, dövlətçiliyin və milli maraqların etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işi ən yüksək tələblər səviyyəsinə çatdırılmışdır.

Böyük qürur hissi ilə deyilməlidir ki, ulu öndərin siyasi kursunu və strateji inkişaf konsepsiyasını uğurla davam etdirən Prezident İlham Əliyev tərəfindən prokurorluğun fəaliyyətinin dünya standartları səviyyəsində təkmilləşdirilərək, ən yüksək beynəlxalq tələblərə uyğun formalaşdırılması prosesi həyata keçirilir, ümumiyyətlə prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqət göstərilir. Prokurorluq orqanlarının müasir dövrün tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində Prezident İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" xüsusi əhəmiyyətə malikdir. Habelə cənab Prezidentin "Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 3 mart tarixli Sərəncamı ilə korrupsiya cinayətləri üzrə ixtisaslaşmış dövlət antikorrupsiya orqanının Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin Azərbaycan Respublikasının Baş prokuroru yanında yaradılması prokurorluğa olan inam və etimadın təzahürüdür.

Prokurorluğun fəaliyyətinin, həmçinin dövlətçiliyə və xalqa olan sədaqətinin dövlət tərəfindən daim yüksək dəyərləndirilməsi hər bir prokurorluq işçisini qürurlandırmaqla bərabər, üzərimizə daha böyük məsuliyyət qoyur.

Odur ki, fəaliyyətində hər zaman ümummilli lider Heydər Əliyevin ali ideyalarını və möhtərəm Prezidentimiz İlham Əliyevin idarəçilik prinsiplərini rəhbər tutan Prokurorluğun kollektivi dövlət başçısının prokurorluq orqanlarına göstərdiyi yüksək diqqət, xüsusi qayğı və etimadı layiqincə doğrultmaq, qanunun aliliyini, insan hüquq və azadlıqlarına dönmədən əməl olunmasını, qanun pozuntularının qarşısının alınmasını və aradan qaldırılmasını, habelə cinayətkarlığa qarşı mübarizəni təmin etmək üçün bütün zəruri tədbirlərin görülməsini bundan sonra da ləyaqətlə davam etdirəcəkdir.

**Ramiz Kamal oğlu ƏLİYEV,**
Cəbrayıl rayon prokuroru
ədliyyə müşaviri

# XƏLƏFLİNİN "FƏLAKƏT TABLOSU"

Şair-publisist Əli Rza Xələflinin Türkiyə zəlzələsində həlak olanların xatirəsinə həsr etdiyi "Türkiyənin zəlzələ ağrıları" adlı yarıqəm-yarıqürur dastanı (məsnəvi-poema və ədəbi düşüncələr) işıq üzü görüb. Kitabın ("Gənclik", 2023) redaktoru və Ön söz müəllifi prof.Təyyar Salamoğlu, rəyçiləri Əməkdar mədəniyyət işçisi Adil Abdullayev, şair Sərvar Hüseynoğlu və ədəbiyyatşünas Əli Bəbiroğludur.

Əsərin adından da göründüyü kimi, poema qardaş Türkiyədə baş verən dəhşətli və irimiqyaslı zəlzələ ilə bağlı qələmə alınıb. Məlumdur ki, zəlzələ təbii fəlakətdir və onun qarşısını almaq hələ ki insan iradəsi xaricindədir:

Allah özü acizdir, hesabı fələk sayıb,
Gəncəni aciz qoyub, Kəpəzi parçalayıb.
Əvəzində Göygölü güzgü verib insana,
"İbrətlə bax, ey könlüm" bu çətinə, asana...

Bu misralarla müəllif hələ dahi Nizami zamanında ölkəmizdə baş verən dağıdıcı zəlzələni xatırladır, bildirir ki, Uca Tanrının, Böyük Allahın adlarından biri olan Fələk bu amansız oyunu - çərxi-fələyin gərdişi ilə dünyanı, bəşəriyyəti fəlakətə salır. Buna el arasında qəlibləşmiş ifadə ilə "Sən saydığını say, gör fələk nə sayır" məsəlimizdə də




açıq-aşkar işarə olunub. Yəni Allah-təalanın 99(1001) adı var ki, onlardan bir adı da Fələkdir. "Fələyi dindireydim" misrası ilə başlanan bayatımızda da "yazı yazdığı yerdə qələmin sindireydim" deyə fələyə qarşı tuşlanmış qəzəb hissi də məhz bu cür amansızlıqların Fələyin ucbatından olduğuna işarədir. Müqayisə üçün deyək ki, Allahın adlarından biri də Qəhhardır (qəhr edən, zülm edəndir) və Allah lazım bildiyi məqamda istədiyinə amansız zülmünü edir. Buna da el arasında "Allahın zülmü tutubdu (filankəsi)" və s. tipli ifadələrimizdə dolayısı ilə olsa da, rast gəlirik.

Bax şair-publisist Ə.R.Xələfli bu məsnəvi-poemasında Türkiyədəki belə bir dəhşətli zəlzələni ürək ağrısı ilə təsvir edir:

**Gözlərimin önündə fəlakət tablosu var,**
**Qəlbimdə yara-yara həlakət tablosu var.**

Məhz bu "fəlakət tabolusunu" Fələk öz amansız gərdişi ilə canlı-canlı çəkib, bəşəriyyəti, Türkiyəni "çərxi-fələyin" zülmünə məruz qoyub.

Poemada zəlzələ iniltilərilə bir sırada - paralel şəkildə "Sultanım" müraciətini tez-tez işlədən şair Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğana səslənir, Azərbaycan Prezidentinin simasında bütün xalqımızın bu çətin anlarda qardaş Türkiyə ilə birlikdə olduğunu dilə gətirir.

**Azərbaycan adından danışan Baş Komandan**
**Sevgimizi çatdırır bir könüldən, bir candan.**

**Sultanım, tək qoymarıq səni kədər əlində,**
**Ağrı çəkir canımız qəza-qədər əlində.**

Bu misralar isə dərdin-kədərin insanlar-qardaşlar arasında bölüşdürülməklə azaldıldığını, dərdinin üstündən dərd götürüldüyünü, çiyninin üstündən ağır yükün azaldığını demək istəyir. Bununla həm də Fələyin amansızlığına qarşı insanların birləşib meydan oxuduğunu və ağrı-acıya qalib gəlmək istəyini, ümidini ifadə eləyib. Üstəlik, Sultanım müraciəti Dünya Liderlərindən olan Rəcəb Tayib Ərdoğanın qətiyyətinə, yenilməzliyinə eyhamdır:

**Türkiyənin önündə Turana yol açırsan,**
**Alp Ər Tonqa ruhuna qəlbindən nur saçırsan.**

Ona görə poema "yarıqəm, yarıqürur" adı ilə təqdim olunur ki, bu ağır qəmin yanında həm də Türk dünyasının qüruru sayılan R.T.Ərdoğan vardır və onun iradəsi, yenilməz qüruru sayəsində bu ağrı-acılar da dəf olunacaqdır. Bəli, axı padşahlar, sultanlar həm də yer üzündə Allahın elçiləri, kölgələridirlər. Allahın kölgəsi Türkiyənin üstündədirsə, deməli, Türkiyənin xilası da olacaq, sabahı da xoşbəxt olacaqdır. Ə.R.Xələflinin poemada vermək istədiyi mesaj da elə bu nikbinliyə əsaslanır.

**Şakir Əlifoğlu**

# NOVRUZ KAİNATININ AZƏRBAYCAN DÜNYASI

**Əziz oxucu, qarşınızdakı kitab Azərbaycan Milli Elmlər Akademiyasının aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent, Qarabağ qazisi və bütün bunların fövqündə dünyanı Allahın (c.c.ə.ş) ona bəxş etdiyi bəsirət gözü ilə görən, sevən və anlayan Şakir Əlif oğlu Alpalının (Albalıyevin) Azərbaycan Novruz bayramı haqqında bir folklorşünas alim kimi müşahidələrini, sofular nəslindən olan bir insan kimi hiss və düşüncələrini əks etdirir.**

Novruz bayramı dünyanı əks etdirən bir güzgüdür: ancaq bu güzgüdə hər kəs yalnız öz görə biləcəyini görür. İllərlə çiyin-çiyinə çalışdığım, dünyanı və insanları yalnız mərhəmət gözü ilə görən, büllur kimi saf qəlbi ilə öz ətrafına işıq saçan Şakir Alpalının mənəviyyat və elmi düşüncə dünyası məni həmişə heyrətə salıb. Başqalarının nəzəri kitablar üzərində illərlə çalışaraq əldə etdiyi bilikləri Allah (c.c.ə.ş.) ona fəhm kimi bəxş edib. O, başqalarının elmi idrakla ehtimal etdiklərini könlü ilə duyur, fəhm edir və anladıqlarını elmi-bədii üslubda təhkiyə edir. Bu cəhətdən, Allahın (c.c.ə.ş.) ona verdiyi payı dərvişanə yaşayan Şakir Alpalının ”novruznaməsi” bütün başqalarından fərqli olaraq, təkcə elmi idrakın yox, həm də onun fəhminin məhsulu kimi orijinal və qiymətlidir.

Şakir Alpalı Novruzu, sadəcə, bir bayram, yaxud əlamətdar təqvim hadisəsi yox, onu minillər boyunca yaşamış insanlıq tarixinin mahiyyəti və mənasını özündə əks etdirən canlı həyat sistemi hesab edir. Alimə görə, Novruzun tarixi bir mədəniyyət hadisəsi kimi onu bu ad altında tarixə daxil edildiyi vaxtdan deyil, bütün insanlığın təbiətlə iç-içə yaşadığı, özünü Allahın yaratdığı dünyanın bir parçası hesab etdiyi, təbiətin gülü-çiçəyi, ağacları, heyvanları, quşları ilə birgə ”ata-övlad”, ”bacı-qardaş” kimi yaşadığı ”vaxtdan” başlanır. Həmin vaxtı insanın ”fenomenal” düşüncə, yəni ”idraköncəsi” şüurla yaşadığı vaxt hesab edən Şakir Alpalı Novruz bayramının bütün ümumbəşəri, ümumhumanist mahiyyətinin məhz həmin fenomenal düşüncə ilə bağlı olduğunu göstərir. Alimə görə, gerçəkliyin fenomenal şüur modeli ilə dərki ibtidai insana varlıq aləminin ilahi vəhdətini hiss etməyə imkan verdiyi kimi, onun yaratdığı ”Novruz” hadisəsini də milli görüşlərin fövqündə duran ümumbəşəri, ümuminsani fenomenə çevirmişdir. Buna görə də Şakir Alpalının kitabda təqdim etdiyi Azərbaycan Novruzu bütün zahiri naxışlarına görə - milli, bütün batini mahiyyətinə görə - ümuminsanidir.

Şakir Alpalının bu tədqiqatı elmi mahiyyəti baxımından Azərbaycan novruzşünaslığının nəzəri-metodoloji bazasına söykənir. Bu bazaya görə:

- Novruz bayramı beynəlxalq-siyasi mahiyyəti baxımından dünyanın Asiya, Avropa və Afrika kimi üç böyük qitəsində müxtəlif etnosları, xalqları, etnik qrupları, dövlətləri, siyasi quruluşları, ideologiyaları, tarixi və müasir mədəniyyətləri, səmavi və qeyri-səmavi dinləri, adət-ənənələri, dil ailələrini, mədəni arealları, insanlığın keçmişi, bugünü və gələcəyini biri-biri ilə birləşdirən, onlar arasında sosial, siyasi, mədəni, psixoloji harmoniya və sülhü bərqərar edən fenomenal mədəniyyət hadisəsidir.

- Novruz bayramı tarixi-mədəni mahiyyəti baxımından onu dünən və bu gün






qeyd edən xalqların bayramı olmaqla yanaşı, həm də öz teokosmik-ümumbəşəri mahiyyəti baxımından bütün dünyada insanlığın yenilənmə və sülh bayramıdır.

- Novruz bayramı ritual-mifoloji mahiyyəti baxımından təqvim bayramıdır. Onun funksional quruluşunun əsasında təbiətin zamanla dəyişməsi (qışın yazla əvəzlənməsi) ritmi durur.

- Novruz bayramı mifoloji-kosmoqonik mahiyyəti baxımından bütün varlıq aləminin (insanın, canlı və cansız təbiətin) yaradılması ideyasını təcəssüm etdirir.

- Novruz bayramı fəlsəfi mahiyyəti baxımından varlığın yenidən yaradılması haqqında ilkin fəlsəfi-mifoloji təsəvvürləri ritual modelində təcəssüm etdirir. O, modern fəlsəfi dünyagörüşləri kontekstində etnosistem və onun daxil olduğu digər sistemləri öz içinə alan ekosistemin sinergetik özünütəşkil, autopoetik özünüyaratma mexanizmidir.

- Novruz bayramı sosial-psixoloji mahiyyəti baxımından təbiət, cəmiyyət və zaman arasında qlobal harmoniyanı reallaşdıran ritual modelidir.

- Novruz bayramı kontinental-coğrafi mahiyyəti baxımından bütöv Avropa, Asiya və Şimali Afrikada müxtəlif etnosların nümayəndələri tərəfindən qeyd olunan, materik və qitələri biri-birinə birləşdirən, onlar arasında sülh və sevgi yaradan ümumbəşəri harmoniya və sülh bayramıdır.

- Novruz bayramı etnik-milli və etnolinqvistik-coğrafi mahiyyəti baxımından üç böyük etnosu: türk, hind-Avropa və sami etnoslarına aid olan xalqların mədəniyyətlərini və dillərini bir kontekstdə birləşdirən xalqlararası harmoniya modelidir.

- Novruz bayramı dini mahiyyəti baxımından öz tarixi boyunca rastlaşdığı dinləri özündə birləşdirməklə dinlərarası (sivilizasiyalararası) harmoniya modelidir (Tire işarəsi ilə verilmiş tezislərin geniş şəkildə təqdim olunduğu qaynaq haqqında bax: Seyfəddin Rzasoy. Novruz bayramının konseptual-fəlsəfi əsasları // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXI kitab. Bakı, “Nurlan”, 2009, s. 87-90).

Şakir Alpalının bu kitabında Novruz bayramının Azərbaycan milli mədəniyyət sistemində yeri və mənası tədqiq olunmuşdur. Novruz mərasim kompleksini Azərbaycan xalq bayramları sistemində ritual-mifoloji əsasları və etnokulturoloji semantikası baxımından ən universal bayram hesab edən alim onun çox mürəkkəb struktura malik olduğunu göstərir. Müəllifə görə, Novruz çox qədim tarixə malikdir. Kökləri birbaşa ilkin təbiət stixiyalarının mifləşdirilməsi çağına gedib çıxır.

Novruz fəlsəfəsinin tədqiq tarixinə nəzər salan Şakir Alpalı bu qənaətlərə gəlir ki, Novruz milli-mənəvi dəyərlər sistemi baxımından Azərbaycan etnik-mədəni düşüncəsinin ayrılmaz və üzvi tərkib hissəsidir. O, milli dövlətçilik ənənələri ilə sıx bağlı olmuşdur.

Bu bayramı mifik inanc fəlsəfəsi baxımından tədqiq edən Şakir Alpalı onu xalqın milli-mənəvi dəyərlərini özündə yaşadan düşüncə sistemi kimi səciyyələndirir və belə hesab edir ki, bu bayramı etnokulturoloji semantika baxımından əslində, milli kimlik bayramı da adlandırmaq olar. Azərbaycan artıq əsrlərdir ki, öz milli varlığını bu bayram vasitəsilə yaşadır. Novruz bayramının bütün simvolikası yenidən doğuluşu təcəssüm etdirir. Yenilənmənin doğuluş vasitəsilə gerçəkləşdirilməsi bilavasitə mifologiya ilə bağlıdır.

Alim Novruzun fəlsəfəsini araşdıraraq belə bir qənaətə gəlir ki, bu bayram həm də Azərbaycan xalqının həyat fəlsəfəsini, təbiət, cəmiyyət və zaman haqqında düşüncələrini özündə inikas edir. Bu cəhətdən, Novruz həm də etnokulturoloji fəlsəfədir. Novruzun özünə məxsus fəlsəfəsi var və Novruz fəlsəfəsində təbiət, cəmiyyət və zamana münasibətdə sistemli baxış var. Bu bayram kainatın, maddi yaradılış aləminin, ilahi yaradılışın mühüm fəlsəfi əsası kimi çıxış edir. Novruzun etnokulturoloji fəlsəfəsinin əsasında təbiətlə cəmiyyətin harmoniyası ideyası durur.

Azərbaycan Novruz bayramını mərasim və simvolika baxımından tədqiq edən Şakir Alpalı hesab edir ki, ritual-mifoloji strukturu və simvolikası baxımından mürəkkəb və zəngin məna aləminə malik olan Novruz mərasimlər və ayinlər baxımından bir mərasim kompleksidir. Həmin kompleksə aid çərşənbələr, çillələr, Novruz simvolları və s. haqqında çox yazılmışdır. Bu yazıların əksəriyyətində sistemlilik çatmır. Yazı müəlliflərinin çoxu öz şəxsi Novruz xatirələrinə əsaslanır, digər bölgələrin Novruz adət-ənənələrinə, demək olar ki, fikir vermirlər. Halbuki bütövlükdə folklor hadisəsi olan Novruzun adət-ənənələri variativ xarakter daşıyır: variantlılıq bu bayramın, demək olar ki, bütün elementlərində müşahidə olunur. Bölgədən-bölgəyə yerdəyişmələr, variativ fərqlər, eyni bir adətin fərqli şəkildə adlandırılması, yaxud müxtəlif adətlərin müxtəlif bölgələrdə fərqli işləkliyə malik olması, yəni birində öndə olan adətin, o biri bölgədə az işlənməsi və s. dərhal özünü göstərir. Novruzun bir bayram kompleksi kimi strukturunun ən mühüm elementləri çərşənbələr və çillələrdir.

Novruzşünaslıqda buta simvolu məsələsinə ilk dəfə toxunan Şakir Alpalı göstərir ki, təbiət yazda təzədən qış sükutundan oyanıb cana gəlməklə bərabər, öz enerjisini təbiətin bir parçası olan insanın da qanına-ruhuna yeridir. İnsanda fiziki baxımdan da bir qaynama hissi baş qaldırır, ehtiras coşur, ruhunda - mənəvi dünyasında da bir təzəlik ab-havası yaranır. Beləliklə, mənəvi və cismani-fiziki baxımdan bütöv olaraq insanda dirçəlmə, yenilənmə əhval-ruhiyyəsi özünü göstərir. Bu, təbiətdə tumurcuqlanma, çiçəkaçma, nəhayətdə barvermə funksiyası ilə reallaşdığı kimi, insan dünyasında da butaalma, adaxlanma və toy mərhələlərindən keçməklə gələcəkdə nəsil artımı - övlad dünyaya gətirməklə nəticələnir. Beləliklə, təbiətin ilk butası tumurcuqlama, ləçəkləmə - çiçəkləmədirsə, insanın da butası məhz təbiətin bu ünsürlərini əks etdirən buta naxışlarında ilkin rəmzlərini tapır. Ona görə də buta mifologemi ilə yaz fəsli, həmçinin yazın gəlişinin sosioloji ifadəsi olan Novruz (habelə Novruzun tərkib hissəsi olan ilaxır çərşənbəsi) bayramı arasında sırf bağlılığın mövcudluğu təbiidir.

Əlbəttə, Şakir Alpalının bu kitabının elmi məziyyətləri haqqında çox danışmaq olar. Ancaq belə hesab edirik ki, biz kitab haqqında hörmətli oxucularda nə qədər geniş təəssürat yaratmağa çalışsaq da, əsl təəssüratı kitabın özü yaradacaqdır. Ona görə də sözü çox uzatmağı oxucuların haqqına girmək hesab edərək, sizləri bu qiymətli kitabla başbaşa buraxırıq.

**Seyfəddin RZASOY,**
*Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu Mifologiya şöbəsinin müdiri, filologiya elmlər doktoru, professor*



XUDAFƏRİN
"Xudafərin harayından qalan mən!.."
№ 5-6 (6871-6872) 10 may 2023-cü il


# QUMRU ŞƏHRİYARLA "CƏBRAYIL: QALALI MƏHƏLLƏSİ"NƏ "SƏYAHƏT"

**Neçə vaxtdır ki, Qumru Şəhriyarın "müşayiəti ilə" Cəbrayılı, Qalalı məhəlləsini "gəzib-dolanmağa" vaxt-fürsət axtarırdım.**

Axır ki, istirahət günlərinə salıb, altıncı-bazar günləri bu "gəzintini" reallaşdırdım: "Cəbrayıl: Qalalı məhəlləsi" ("Apostorf -A", 2021) adlı kitabın səhifələrində 2 gün asta-asta, aramla "seyrinə daldım" doğma yurdumun bir guşəsini. "Qalalı əhli"nin çoxu ilə - dünyasını dəyişənlərin saf ruhları ilə, bu dünyada yaşayanların özləri ilə qiyabi də olsa, görüşdüm" - tanışlıq tapdım: "İlk dəfə 1865-ci ildə Şuşa şəhərindən Cəbrayıla 7 ailə köçüb. Pənahabad qalasından gəldiklərinə görə onlara Qalalı deyiblər və Cəbrayılda kompakt şəkildə məskunlaşıblar. Qalalılan Cəbrayıla ikinci və demək olar ki, ən böyük köçü 1905-ci il erməni təcavüzündən sonra olub. Şuşada 1905-ci ildə törətdikləri qırğınlar xalqımız üçün daha sonrakı dəhşətli faciələrin ilkin müjdəçisi idi. Mir Möhsüm Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası", M.S.Ordubadi "Qanlı illər", C.Cabbarlı "1905-ci ildə" adlı əsərlərində bu faciəni ətraflı şəkildə işıqlandırmışlar.

Xalqın erməni-müsəlman davası adlandırdığı bu münaqişədə ermənilər qarşılarına çıxan əliyalın əhalini bıçaqla doğrayırdılar. 1916-cı ildən sonra isə üçüncü köç baş verib. Yenə də erməni təcavüzündən yaxa qurtarmağa çalışan əhali gizlincə Şuşanı tərk edirdi. "1918-ci ildə Şuşada Qafar doxturla Əminə həkimi atın belindəki xurcunun hərəsini bir tərəfinə qoyub gizlədərək Şuşadan qaçırıblar".

Beləliklə, o illərdə Şuşadan Cəbrayıla ümumilikdə qırx ailə köç edib. Bu erməni vəhşiliyinin əlindən yaxa qurtarmağa çalışan təxminən 8-10 ailə Füzuli rayonunda, bir o qədər ailə də Ağdamda, Qubadlıda, Tərtərdə, Qazaxda və digər rayonlarda məskunlaşıblar" (s.12-13).

Qumru xanım kitabın girişində mövzuya - Cəbrayıldakı Qalalı adlanan məhəllənin binasının qoyulması tarixinə və səbəblərinə bu cümlələrlə aydınlıq gətirib. Bu səpkidə izahları ilə kitabın müqəddiməsini verəndən sonra ilk bölmə kimi "Qalalı əhli" adı ilə Qalalı məhəlləsinin sakinləri haqda əlyetən ümumi və rəsmi məlumatlar vasitəsilə oxuculara təqdimat verir.

Düzünü deyim ki, ağır-ağır həmin rəsmi təqdimatları gözdən keçirdim. Yığcam şəkildə, lakin dolğun halda verilmiş Qalalı ailələri və ayrı-ayrı insanları barədə oxuduqca, elə bildim ki, onlarla birbaşa tanışlıq tapıram. Hətta bəzi nakam və işıqlı tale sahiblərinə doluxsunub - kövrəldim də, göz yaşlarımı axıtdığım anlar da oldu. Misal üçün, "Həsənova Ziba Məhəmməd qızı - 1917-ci ildə Cəbrayıl qəzasında anadan olub. İlk təhsilini burada aldıqdan sonra Azərbaycan Tibb İnstitutuna daxil olub. İnstitutun ilk məzunlarından biridir. Cəbrayıl rayon xəstəxanasında pediatr işləyib. Ziba Həsənova 1945-ci ildə faciəli şəkildə dünyasını dəyişib" (səh.70).

Yaxud da: "Tubu xanımın ailəsi" qrafasında yer almış aşağıdakı məlumata diqqət edək: "Kazımova Maya Ağca qızı - Cəbrayıl rayonunda dünyaya gəlib. İlk təhsilini orada aldıqdan sonra 1930-cu ildə Moskvada aspiranturaya daxil olub, dissertasiya işini qurtarmağa yaxın ağır xəstəliyə düçar olmuşdur. Nişanlısı - vaxtilə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi işləmiş Həsən Həsənov onu qatarla gətirəndə yolda xəstəlik ona güc gəlmiş və o, ağciyər qanaxmasından dünyasını dəyişmişdir" (səh.101).

Gətirdiyim məlumatların birində gənc həkim qızın faciəli şəkildə dünyasını dəyişməsi amili mənim təsəvvürümdə həm dünyadan mənəvi intellekti yüksək olan bir gəncin ömrünün yarımçıq qırılması kimi ağır psixoloji yaşantı deməkdir, həm də 1940-cı illərin ortalarında həkim kadrların az olduğu dövrdə bir gənc həkimin də faciəli ölümü ictimai baxımdan ağır, üzücü xəbərdir, ürəkgöynədən ağrıacıdır.

İkinci faktda isə Moskvada aspirantura təhsili alan gənc qızın ağır xəstəliyə mübtəla olması nəticəsində nişanlısının yanında dünyasını dəyişməsi də mənim üçün ürək ağrısı ilə qarşılandı. Özü də ağır bir dövrdə - sovet hakimiyyətinin təzə qurulduğu vaxtlarda Rusiyaya təhsil dalınca yollanan Azərbaycanlı qızın itkisi millətimiz üçün də böyük kədər deməkdir. Nəinki təkcə Cəbrayılımız üçün...




Bax Qumru xanım məni öz kitabında rayonumuza "səyahətə aparanda" və "yol boyunca" bu kimi faktlarla rastlaşdıranda ürək ağrısı yaşadım, kövrəldim də, ağladım da. Bax beləcə, Qumru Fuad qızı Şəhriyar məni Cəbrayıla - Qalalı məhəlləsinə "apardı", oranın nur üzlü insanları ilə məni yaxından "tanış elədi". İki gün çəkdi bu tanışlıq üçün "səfər müddəti". Bəli, 6-cı və bazar günlərini ancaq bu kitabla aşiyan oldum, bu kitabla səssiz söhbət nəticəsində Cəbrayıl torpağı ilə, Cəbrayılın Qalalı məhəlləsinin sakinləri ilə həzin-həzin "ünsiyyətdə oldum".

Kitabın 2-ci bölümü olan 2017-ci ildə Qalalıların bir yerə toplaşıb keçirdikləri tədbirin stenoqramı da çox kövrək duyğularla müşayiət olunur. Həmin məclisə dəvət olunmuş, Azərbaycan dili və ədəbiyyatı müəllimi Vidadi Hümbətova söz veriləndə özünəxas şux bir tərzdə: "mən Qalalı deyiləm axı. Mən Quycaqdan Cəbrayıla köçəndə 1961-1963-cü illərdə biz Qalalı məhəlləsində yaşamışıq. Rəhmətlik Səfqulu müəllimgilin məhləsində yaşamışıq. Fərqi yoxdu, hamısı Cəbrayıldı. Bizim üçün əzizdi", - deyir. Bu kimi çıxışlardan da görünür ki, bu məclisdə təkcə Qalalılar deyil, onları yaxından tanıyanlar da dəvət alıbmış və ümumcəbrayıl naminə bir səmimi toplantı keçirilibmiş. Vidadi müəllimin həmin stenoqramda yer almış xatirələrə söykənərək danışdığı geniş və məzmunlu çıxışından bir parçanı da misal gətirmək istərdim:

"Çərşənbə və Novruz bayramları gələndə biz balaca uşaqların sevincinin həddi-hüdudu olmurdu. Dəstə ilə qonşulara papaq atar, onlar da bizi mehribanlıqla qarşılayar, papağımıza bayram payı qoyardılar. Çiynimizə atdığımız yekə torba bayram sovqatı ilə dolmayınca evə qayıtmazdıq. Papaq atmaq bayramın əsas əlaməti və şirin macəralarla dolu anları sayıldığından bu iş ayıb bilinməzdi. Həmin günü küsənləri barışdırardılar. Hamı bir-birinə pay aparıb-gətirərdi. Su sonası kimi qız-gəlinlər Çinar kəhrizində əl-üzünü yuyar, qəlblərinə hakim kəsilmiş duyğularını, xoş niyyətlərini xəfif bir pıçıltı ilə suya söyləyərdilər.

Məhəllənin lap girişində yandırılan böyük tonqalın ətrafında dayananlardan kimsə məlahətli səslə oxuyurdu.

**Bu gün yarı çox gözlədim,**
**Gec gəlmişdi, nə gizlədim.**
**"Gəl qol-qola gəzək", - dedim,**
**"Nişan göndər sonra", - dedi.**

Yaxınlaşıb baxanda tanıdım. Tahir idi. Qəsəbənin yuxarı başında yaşasa da, gecənin bu vaxtı gəlib bizim məhəllədə oxumağı bir az müəmmalı idi. O vaxt uşaq idim, belə şeyləri duymazdım. Sonralar mənə aydın olacaqdı ki, Tahirin bu cür yanıqlı oxuyaraq ərtafdakıları səsinin sehrinə salmağının səbəbi başqadır. Əgər dərindən müşahidə edən olsaydı, görərdi ki, Tahirin dayandığı yerdən cəmi beş-on metr aralıda - çəpərin arxasında, badam ağacının budaqları arasından heyranlıqla ona bir cüt göz baxır. Bu məftun gözlər idi Tahiri bura gətirən də, onu alovlandıran da, səsini həzin və yanıqlı edən də... Tahir sonralar həmin qızla evləndi. Uzun illər toy məclislərində xanəndəlik etdi. Ancaq mənə elə gəlir ki, o heç vaxt həmin gecə oxuduğu segah və mahnının zirvəsinə çata bilmədi. Çata bilməzdi də. Çünki yaddaşımda əbədi qalan o gecənin ruhu da, təravəti də, ləzzəti də tamam başqaydı (s.144-145).

Bu parçanı bir folklorşünas kimi nümunə gətirdim ki, düzün düz vaxtları Cəbrayıl şəhərinin mərkəzində Çərşənbə və Novruz bayramlarının hansı ovqat üstündə və hansı ənənələrlə keçirildiyini bir daha xatırlayaq.

Bəzilərinin nahaq yerə etirazla qarşıladığı papaqatdı adətinin Novruz və Çərşənbə bayramları üçün ənənəvi bir hal olduğunu görüb, eşidib - bilsinlər. eləcə də sevgililərin gizli sevişməsi, arzu-niyyətlərin suya söylənməsi, uşaqların boyunlarından camtay (yerli danışıqda çanta sözü camtay şəklində işlədilir) asıb qapı-qapı (baca-baca) gəzdikləri və çərşənbənin digər bir yerli adının (yəni Cəbrayıl camaatının danışığındakı adının) da məhz bu ənənədən irəli gələrək "baca-baca" ("baja-baja") olduğunun və s. fərqinə varsınlar. Daha geniş təfərrüata varmıram.

Bu kimi xatirələrin dil açdığı səhnələr də adamı mütəəssir etməklə bir daha Cəbrayıllı günlərə - "Cəbrayıla səyahətə" aparır. Bax beləcə, Qumru Şəhriyar "Cəbrayıl: Qalalı məhəlləsi" kitabı ilə "əlimdən tutub" məni Cəbrayıl şəhərinə qiyabi də olsa "ekskursiyaya apardı".

Yaqub Məmmədovun aparıcılığı ilə keçən məclisdə söz verdiyi Almaz müəllimənin - Almaz Ələsgərqızının çıxışındakı bir məqam da əməlli-başlı ağlatdı məni: "Umudumuz bircə ölülərin ruhuna qalıb ki, onlar bəlkə Cəbrayılın üzərində gəzələr. Cəbrayılın xaraba qalmış evlərində gəzələr. Vallah güllə qabağına gedərəm, fikirləşmədən gedərəm. İllər bundan qabaq anamın rəhmətə getdiyi 10 ildir. Allah yenə də hamının ölənlərinə rəhmət eləsin. Övlad kimi çalışmışam bacardığımı eliyim ki, onun nisgili qalmasın. Bir gün işdən qayıtdım... Anamı tanıyanlar bilirdilər ki, bir az kür arvad idi. Şuxluq eliyirdisə, gülürdüsə, bilirdik ki, ərköyünlük eliyir. Susurdusa, bu, artıq fəlakət idi, demək, onun nə isə dərdi var idi. İşdən gəldim, saat səkkiz olardı. Gördüm, anam divanın üstünə söykənib. Dedim: "Ana nolub, haran ağrıyır?" Dedi: "Heç yanım ağrımır". Çox başına hərləndim, çox ora-burasına keçdim, özüm də yorğunam. Bir az keçdi, qayıtdı dedi: "Almaz, bilirsən nə istəyirəm?" Dedim: "Nə istəyirsən?" Nə istəsə, verəsiydim ona. Yerin deşiyindən də olsa, tapıb verəsiydim. Dedi: "Almaz, xarabamı istəyirəm". Mən heç nə deyə bilmədim. Saat 12-yə qədər divanın o biri küncündə də mən qısılıb gözümün yaşını axıtdım.

Allah bizlərə qismət eləsin, heç olmasa, balalarımıza torpaqlarımızı, yerimizi-yurdumuzu göstərə bilək. Bir də Cəbrayıl həsrəti ilə... yox, ağlamaq yox... Bizə Cəbrayılı qaytarmaq lazımdı. Bir də Cəbrayıl həsrəti ilə bir balaca şeir yazmışam. Onu oxuyacam burda. Gedək Cəbrayıllı "gəzək" bir azca..." (səh. 152-153)

İnanın ki, elə bil mən də bu söhbətdə, söylənən epizodun canlı şahidi idim, Almaz müəllimənin anasının vətən həsrətilə dünyadan köçməsi ərəfəsində öz doğma evini, vətənini arzulamasına - istəməsinə dözməyib, bir küncə qısılıb ağladığı səhnə gözlərimdə canlandı və mən də bu sətirləri oxuyanda "Almaz müəlliməyə qoşulub ağladım". Çünki bu hiss mənə də doğmadır, atam 63 yaşında dilində "vətən", "Cəbrayıl", "Dağtumas", "Pirəsəd" kəlmələri ilə vətən, yurd ah-zarı ilə dünyadan köçəndə də məni ən çox sarsıdan məqamlardan biri atamın yurd nisgili ilə qaçqın-köçkün kimi dünyadan köçməsi oldu. Çünki insan vətəndən əlinuzalı gedəndə, ruhu da nigaran qalır, qiyamətəcən vətənsizlik duyğusu adamı sızladır, yandırıb-yaxır.

Qumru Şəhriyarın da qeyd etdiyi kimi, bu məclis 21 oktyabr 2017-ci ildə olub, onda Cəbrayılımız işğalda idi. Həmin tədbirin təşkilatçısı da - Qumrunun atası Fuad Şəhriyaroğlu da haqq dünyasına qovuşub.

Bu gün yəqin ki, yurddan uzaqda dünyasını dəyişənlərin ruhu sevinir ki, doğma yurd yerlərimiz işğaldan azaddır. Arzu edirəm ki, Qumru Şəhriyarın kitabı ilə qiyabi səyahətə çıxdığımız Cəbrayılda - Qalalı məhəlləsində Qalalılarla və bütün Cəbrayıl camaatı ilə bir yerdə canlı şəkildə görüşək, doğma məkanımızda yaşayıb-işləyək və bəxtəvər çağlarımızı davam etdirək!

**Əlifoğlu Şakir**




# Dinclik tapan şəhid ruhu

*(Şəhid Murad Hafiz oğlu Cəfərovun əziz xatirəsinə)*



İnsan üçün həyatda üç müqəddəs məfhum var: Vətən, ana və namus. Əgər bu ali məqamları bir sözlə ifadə etmək lazım gələrsə, bunların bir adı var: Vətən! Damarlarında bir millətin qanı axan hər kəsin arzusu öz vətənini azad, torpağını laləzar və xalqını xoşbəxt görməkdir. Sovet ordusu sıralarından tərxis olunduqdan sonra Murad Hafiz oğlu Cəfərovu Milli Orduya gətirən səbəb Vətəninə, xalqına olan sonsuz sevgi, övladlıq borcu idi...

2010-cu ildə onun haqqında qələmə aldığım "Düyün düşən cığırlar" adlı tarixi-sənədli oçerklər kitabım da döyüşçülərimizin son direniş yeri olan Daşbaşı döyüşlərindən bəhs edir. Həmin vaxtlar Vətən müharibəsindən və tarixi Zəfərimizdən on illik tarixi bir zaman ayırırdı bizləri. Bu tarixi Zəfərə addım-addım, qətiyyətlə, tarixi keçmişimizi öyrənərək, uğurlarımızı, səhvlərimizi saf-çürük edərək gedirdik. Uzun illər şəhid ruhları kol-kos basıb düyün düşmüş yollara boylandılar. Bu cığırların Daşbaşıda birləşəcəyi günü gözlədilər. Cığırlar çox olsa da, yol bir idi - doğma Qarabağımızı işğaldan azad etmək yolu... Hamımız bu yola çıxmalıydıq və çıxdıq da... Bu yolda cəmi şəhidlər, o cümlədən şəhid Murad Hafiz oğlu bizlərlə yanaşı addımladı...

Şəhidlik Allah dərgahında ən uca məqamlardan biridir. Allah yolunda, Vətən yolunda şəhid olanların ölümsüzlüyü barədə müqəddəs "Qurani-Kərim" belə buyurur: "Allah yolunda öldürülənlərə "ölülər" deməyin, diridir onlar, siz bunu duymazsınız". Allah təcavüz edənləri sevmir, ancaq "sizə təcavüz eləyənə sizə təcavüz elədiyi sayaq siz də təcavüz eləyin". Dədə-babalarımızın müqəddəs ruhlarının dolaşdığı tarixi torpaqlarımıza qayıtmağın ən məqbul yolunu göstərir: "Harada yaxalasanız öldürün onları, sizi çıxardıqları yerdən siz də çıxarın onları...".

Daşbaşı rayonumuz üçün strateji əhəmiyyətə malik mövqedə yerləşirdi. Bunu mənfur düşmənlərimiz də yaxşı bilirdilər. Ona görə də 1993-cü ilin avqust ayının on dördündən on beşinə keçən gecə güclü qüvvə ilə erməni işğalçıları bu posta hücum etdilər. Daşbaşı postu ön mövqedə döyüşən əsgərlərimizə artilleriya dəstəyi vermək və hava hücumundan müdafiə məqsədi ilə yaradılmışdı. Hərəkül postu ilə Daşbaşı postu arasında yerləşən ərazidən düşmən tərəfi irəliləyərək Daşbaşı mövqeyini işğal etdi. Şəhid olan oğullarımızdan biri də Murad Cəfərov idi. Həmin döyüşün iştirakçısı Əzim Hüseynovun dediklərindən: Əvvəllər mən Muradı bir kəndçim, qohumum olaraq tanıyırdım. Bakıdan gəlib könüllü olaraq cəbhəyə gedəndə məni Sarıcallı kəndində yerləşən topçular bölüyünə göndərdilər. Mən Muradla elə orada görüşdüm. Bir xeyli söhbət etdik. Onunla söhbət zamanı mənə bir daha aydın oldu ki, Murad vətənpərvər, qeyrətli bir gəncdir. Torpaqlarımızı tezliklə yağı düşməndən azad etmək arzusu ilə yaşayır. Bir müddət yollarımız ayrıldı, müxtəlif postlarda xidmət edirdik. Ona görə də az-az görüşürdük... Muradla axırıncı dəfə Daşbaşı postunda görüşdük. Bir qədər söhbət etdikdən sonra o, posta çıxdı, mən isə sığınacaqda qaldım. 15 avqust 1993-cü ilin həmin müdhiş gecəsi idi. Düşmən posta hücum etdi, biz mühasirəyə düşdük və qeyri-bərabər döyüşdə post ələ keçirildi. Mən yaralandım, Murad isə qəhrəmancasına şəhid oldu..."

Şəhid Murad Hafiz oğlu Cəfərov 23 mart 1971-ci ildə Cəbrayıl rayonunun Daş Veysəlli kəndində anadan olub. 1978-ci ildə kənddəki orta məktəbin birinci sinfinə daxil olmuş, 1988-ci ildə həmin məktəbi bitirib. Məktəbi bitirdikdən sonra Füzuli rayonundakı üçaylıq sürücülük məktəbində oxuyub. 1989-cu ildən 1991-ci ilin iyul ayına kimi daxili qoşun hissələrindən birində hərbi xidmətdə olub. Sovet ordusu sıralarından qayıtdıqdan sonra bir müddət fəhlə işləyib. 17 sentyabr 1992-ci ildən "N" saylı hərbi hissənin artilleriya divizionunda könüllü olaraq çavuş rütbəsi ilə xidmətə başlayıb. Topçu olaraq hərbi sirlərə yiyələnib. Quşçular, Hərəkül, Daşbaşı postlarında torpaqlarımızı qoruyub, Sirik kəndində gedən döyüşlərdə qəhrəmanlıq göstərib.

Bu gün cəmi şəhidlərimizin, o cümlədən Murad Hafiz oğlu Cəfərovun ruhu şaddır. Çünki torpaqlarımız artıq düşmən tapdağında deyil. Oğullarımızın qanı, canı bahasına işğaldan azad edilib. İndi hər birimiz başqa bir ovqatdayıq. Hər sözdə, hər cümlədə minnətdarlıq hissi duyulur.

Şəhidimizin qardaşı Muxtar yurda dönüşünü, qardaşının məzarı başında keçirdiyi hissləri dilə gətirdikcə həyəcanlanır, bu anları sözlə ifadə etməkdə çətinlik çəkir. Amma gözlərindən, baxışlarından minnətdarlıq hissləri oxunur. O, bu böyük Zəfəri bizlərə yaşadanlara minnətdardır. Qürurlu, başı ucadı. Şəhid qardaşı olaraq fəxr edir. Amma bu baxışlarda kədəri də sezməmək mümkün deyil. Baxışlar danışır. Gözlərini bir nöqtəyə zilləyib: "Çox təəssüflənirəm ki, atam Hafiz kişiyə, anam Səlbi anaya, bacım Məhluqəyə bu günləri görmək qismət olmadı. Mən şair deyiləm. Bəzən düşüncələrimi sətirlərə düzürəm. Qardaş itkisi, əzizlərimin itkisi çox ağırdı",-deyir.

**Gözlərimdə qüssə-kədər,**
**Sənsiz ömrüm oldu hədər.**
**Bu da qismət, tale-qədər,**
**Murad decək gözüm dolur;**
**Qardaş dərdi ağır olur.**

**Oldu yerin soyuq səngər,**
**Gələrdin sən, ölüm əngəl.**
**Gözləyirəm bircə sən gəl,**
**Murad decək gözüm dolur;**
**Qardaş dərdi ağır olur...**

Bu nəsildə, qardaş ocağında Murad adlı bir gənc də böyüyür. Ailənin, şəhid əmisinin adına ləyaqətlə daşımaq üçün səylə çalışır, təhsildə qazandığı uğurlarla, nümunəvi davranışı ilə seçilir. Arzusu ali məktəbə qəbul olmaq, layiqli, vətənpərvər bir vətəndaş kimi yetişməkdir. Yaxşı deyiblər: "Çıxdın yola, uğur ola!". Uğurlar səninlə olsun şəhid əmisinin adını daşıyan oğul!

Daşbaşı hadisələri qəhrəmanlıq dastanının şanlı bir səhifəsidir. Bu səhifədə neçə-neçə oğullarımızın- Qəribin, Zahidin, Elçinin, Teymurun, Etibarın, Ramizin, Süleymanın, Hafizin, Fərhadın, Bayramın, Yusifin, Həsənin, Arifin, Rəfayılın, Müslümün, Vahabın, Aydının, Rüfətin, Mətləbin, Cəbrayılın, Faiqin, Rövşənin, Elmanın....adları qızıl hərflərlə yazılıb.

Bizlər doğma Cəbrayılımıza dönmək ərəfəsindəyik. Ötən hər gün bizi bu böyük arzumuza yaxınlaşdırır. Zəngilanın Ağalı, Tərtərin Talış kəndlərinə qayıdış ağrılarımıza məlhəm olur. Bu Böyük Qayıdış həm də şəhidlərimizin arzularının çiçəklənməsi, boy verməsidi. Otuz ilə yaxın zaman kəsiyindən sonra məzarlarını ziyarət etdiyimiz şəhidlərimizə hesabat verib, qürurla bildiririk ki, biz qurub-yaratmağa, neçə-neçə yarımçıq qalmış arzuları cücərtməyə dönürük...

**HİDAYƏT SƏFƏRLİ**

## ULU ÖNDƏR

**Ulu Öndər, tarixlərə örnəksən,**
**Məhəbbətin milyonları yaşadır.**
**İndən belə yüz illər də gərəksən,**
**Azərbaycan - Heydər adı qoşadır,**
**Xalq Heydəri, Heydər xalqı yaşadır.**

**Özün xalq, zəkan bol, baxışların nur,**
**Adın çəkiləndə duyuruq qürur.**
**Hər geniş sinədə üç ürək vurur:**
**Azərbaycan Heydər, Heydərsə xalqdır,**
**Xalq Heydəri, Heydər xalqı yaşadır.**

**Həm cavansan, həm uludan-ulusan,**
**Millətimin işıq saçan yolusan.**
**Azadlığın müstəqillik qolusan,**
**Azadlıqla müstəqillik qoşadır,**
**Xalq Heydəri, Heydər xalqı yaşadır.**

**Gözündə günəşin zərrəsi, nuru,**
**Üzünün çöhrəsi sulardan duru.**
**Duruşunda Heydərbaba qüruru,**
**Heydər dağdır, dağsa Heydər babadır,**
**Xalq Heydəri, Heydər xalqı yaşadır.**

**Çərkəz Mirzə (Məhərrəmov)**

# Vətənpərvərlik və vətəndaşlıq ruhlu misralar







Çərkəz Mirzə (Məhərrəmov Çərkəz Bahadur oğlu) 1966-cı ildə Cəbrayılın Qumlaq (Məstalıbəyli) kəndində anadan olub. 1973-1983-cü illərdə Qumlaq kənd orta məktəbində oxuyub. 1984-1986-cı illərdə Uzaq Şərqdə hərbi xidmətdə olub. 1986-1988-ci illər Leninqrad şəhərində yaşayıb. 1988-ci ildə Qarabağ məsələsi ilə bağlı vətənə gəlib, Ağdam, Tərtər, Füzuli bölgələrində döyüşüb. Ara-sıra şeirlər yazan Çərkəz Mirzənin "Məhəbbət dolu dünyam (Məni yaşadan məhəbbət)" adlı ("Qanun", 2003) şeirlər kitabına göz atıram. Diqqətim "Atamın gileyi ruhu" adlı şeirə sataşır: nədir atanın gileyi?

**Bir ata uyuyur qəbristanlıqda,**
**On ildir həsrətdir göz yaşlarına.**
**On ildir həsrətdir doğmalarına,**
**Oğul-qızlarına, qardaşlarına.**

**Bir ata uyuyur qəbristanlıqda,**
**Oğuldan gileyli, qızdan gileyli.**
**Gecələr qarşımı kəsib yuxuda**
**Yamanca danışır bizdən gileyli.**

**Yamanca qınayır bizləri atam:**
**Deyir - Torpağı da satmaq olarmı,**
**Ata-babaların məzarlarını**
**Ayaqlar altına atmaq olarmı?!**

**Ahıl analarım, qızlarım əsir,**
**Şəhid balaların ruhu dardadır.**
**Mənim döyüşməyə ruhum tələsir**
**Sənin cismindəki canın hardadır?!**

**Qələbə uğrunda, Vətən uğrunda**
**Cihada çağırır bizləri ata.**
**Bir döyüş əzmi var onun ruhunda,**
**Bir inam hissi var nurlu həyata.**

**Yaman narahatdır atamın yeri,**
**Oğuldan gileyli, qızdan gileyli.**
**Oğullar, torpağı qaytaraq geri.**
**Atalar qalmasın bizdən gileyli!!!**

Torpaqlarımızın işğalı dövründə yazılmış bu şeiri bütöv verdim. Atamın məzarı göz yaşlarına həsrətdir deyən Çərkəz qardaşımız bildirmək istəyir ki, doğmalarımızın buz kimi soyuq məzarlarını ziyarət edib, könlümüzün - qəlbimizin alovlu sevgisinin ifadəsi olan isti göz yaşlarımızla isitməliyik, onların ruhlarını məzarda darıxmağa qoymamalıyıq. İşğalda olan torpaqlarımızda qalan ata(lar)ımızın ruhları bizi çağırır deyən şair çox təsirli bir şəkildə atasının məzarının dilindən söyləyir ki:

Mənim döyüşməyə ruhum tələsir,
Sənin cismindəki canın hardadır?!

Əslində, bununla ata-babalarımızın ruhlarının bizləri ittihamını ifadə edir müəllif. Həm də şeirin sonuncu misralarında deyilən "oğullar, torpağı qaytaraq geri, atalar qalmasın bizdən gileyli!!!" fikirlər vasitəsilə Ç.Mirzə vətənimizin ata-babalarımızın bizə qoyduğu müqəddəs əmanəti olduğunu xatırladır, şeirin əvvəlində şəxsən atasının məzarına nisbətdə başladığı fikrə sonda ümumi ictimai məzmun yükləməyə nail olur. Beləliklə, bir atanın timsalında ümumi ataların obrazını, ümumi ataların timsalında isə müqəddəs ata-baba ocağının - yurdunun simvolu olaraq vətənimizin obrazını şeirdə yaratmağa müvəffəq olur. Bu isə bu lirik şeirin həm də epik təhkiyəyə xas olaraq müəyyən süjetə malik olan dinamikasını ifadə edir. Əgər yazar şəxsi kədərindən çıxış etməklə ona sonda ümumi, ictimai məzmun çaları qatmağı bacarırsa, deməli, o, hansısa uğura imza atıb. Çərkəz Mirzə burda həm də özünün timsalında yüzlərlə özü kimi qaçqın-köçkünün atasının məzarının həsrət çəkdiyini göstərə bilmişdir.

Vətəndaş - şair olaraq da şair Çərkəz Mirzə özü ataların ruhundan eşitdiyi bu vətən uğrunda savaş çağırışına səs verir:

**İndi şeir, dastan yeri deyildir,**
**İndi hünər meydanıdır, ərənlər.**
**Torpağıma düşmən gözü dikilir,**
**Yerli-yersiz sözdən doyun, şairlər**
**Qələmlərə patron qoyun, şairlər.!**

Beləcə, özü "qələmlərə patron qoyun, şairlər!" deməklə də kifayətlənib qalmır, müsəlləh vətən əsgəri kimi torpaqlarımızın işğaldan azad edilməsində gedən döyüşlərdə Ağdam, Füzuli və Tərtər bölgələrində iştirak edir.

Çərkəz Mirzə yazdıqlarında özünün həyat kredosunu belə bəyan edir:

**Arsız-arsız gülüb, gəzməyə nə var,**
**Həyatda həyalı gəzə biləsən.**
**Ağrısız ürəyə dözməyə nə var,**
**Ağrıyan ürəyə dözə biləsən...**

Bu minvalla bir müəllif kimi oxucularını vətənin azadlığı uğrunda döyüşlərə səsləməklə həm də həyatda namusla yaşamağa çağırır. Qələm adamlarının missiyası da elə oxucularını bu cür vətənpərvərlik və vətəndaşlıq ruhunda tərbiyəyə çağırmaqdan ibarətdir.

**Albalıyev Şakir**



“Xudafərin harayından qalan mən!..”

XUDAFƏRİN

# Hər görüş bir xatirə



Professor Füzuli Bayatla Pirəküşkül qəsəbəsində məskunlaşmış Əliyənağı Çələbi Zamanovla görüşüb-söhbətləşməyə getmişdik. Bizi Cəbrayıllığa xas, Çələbilərə xas olan mehribanlıqla, qonaqpərvərliklə qarşıladılar.

Söhbətimiz xeyli çəkdi. Füzuli Bayatın Çələbilər ocağı ilə bağlı suallarını Əlyənağı müəllim əhatəli şəkildə cavablandırdı. Çələbilərin dini dünyagörüşü, mənsub olduqları dini təriqətləri və s. ilə bağlı verilən suallara cavablarda övliya kimi Çələbilərin dində və ictimaiyyət arasında mövqeyi, nüfuzu məsələləri açıq-aydın şəkildə izahını tapırdı. 1937-ci ilin qanlı repressiya qurbanı olmuş Çələbilər nəslinin faciəli taleyindən də danışıldı və bu ağır zərbənin xalqımız üçün heç vaxt sağalmayacaq mənəvi yara olduğu diqqətə çatdırıldı.

Beləcə, Əlyənağı Çələbi ilə həzin, kövrək və xoş duyğularımızın bir-birinə qarışdığı bir görüşümüz oldu.

***

Məcburi köçkünlük nəticəsində rayonumuzun əhalisi respublikamızın 58 rayonuna dağılışıb-səpələndi. Dəvəçi (Şabran) rayonunun Qarabağlar və Güləmli kəndləri yaxınlığında da məcburi köçkünlərimiz üçün bir qəsəbə salınıb. İllər öncə orda atamın bibisi olan Mirimova Durna Albalı qızının oğlu Feruz əminin yas mərasimində olmuşdum...

Bir gün bacımın həyat yoldaşı Abbasa dedim gəl bir dəfə gedək Şabrana. Sağ olsun, o da məni eşitdi, onun maşını ilə yola



düşdük. Atamın bibisi - Durna bibimizin oğlu Xurram (kitab adı Telman) Yusifovun qonağı olduq. Qonaqpərvərliklə qarşılandıq, gəlişimizin şərəfinə zəngin süfrə açdılar. Keçmiş xatirələr dilə gəldi, nostalji duyğular yaşadıq. Allaha şükürlər elədik ki, artıq torpaqlarımız işğalçılardan azad olunub. Yaxın gələcəkdə doğma torpaqlarımıza, Hovusluya, Yavsılıya, Pirəsədə, Saracığa, Hacı Qaramana gedərik gedərik, orda vətənli günlərimizi yaşayarıq, dünyasını dəyişənlərimizin də ruhları şad olar.

***

Orta məktəbdə müəllimim olmuş və sonradan onunla çiyin-çiyinə müəllim kimi işlədiyim məktəbimizin direktoru Musa Məhəmməd oğlu Abasquliyev də Dəvəçi (Şabran) rayonunda məskunlaşıb. Doğma müəllimimizi ziyarət etmək mənim üçün ən savab əməllərdən biridir.

Abbas Fəxrəddin oğlu ilə Musa müəllimgilə getdik. Musa müəllim, Abbasın bibisi olan Musa müəllimin həyat yoldaşı Validə xanım, oğlu Qorxmaz, ailə üzvləri bizi çox böyük şadyanalıqla qarşıladılar. Yaxşı yeməyimiz - içməyimiz üçün dəm-dəstgah qurdular, süfrə bəzədilər. Kövrəldik, keçmişdən, olmuş-olacaqlardan xeyli söhbət saldıq. Rəhmətlik müəllimlərimizi - Əli müəllimi, Əyyub müəllimi, Alkərəm müəllimi, Həsən müəllimi, Rəfayıl müəllimi.... yada saldıq. Keçmiş günlərə qayıtdıq. Ömrümüzdə silinməz izlər qoymuş məktəb həyatımızdan, vətənli günlərimizdən kövrələ-kövrələ da-



nışdıq. Bizi elimizdən-yurdumuzdan edənlərə lənətlər yağdırdıq. Şəhidlərimizin, dünyasını dəyişənlərimizin ruhuna rəhmətlər söylədik. Tezliklə doğma yurdumuza qayıdıb, vətənli günlərimizi davam etdirməyimizi arzuladıq.

**Əlif oğlu Şakir**

# MALİK ƏHMƏDOĞLU İLƏ GÖRÜŞ



Həzi Aslanovun adını daşıyan Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin kitabxanasında aprelin 5-də şanlı Aprel döyüşlərinin 7-ci ildönümü münasibətilə bir qrup qələm adamının iştirakı ilə ədəbi-bədii görüş təşkil olunmuşdu. Dövlət Himnimizin səsləndirilməsi və şəhidlərimizin xatirəsinin anılması ilə başlanan tədbir 1993-cü ilin 1 aprelində şəhidlik zirvəsinə ucalmış Söhrab Əhməd oğlu Məmmədovun xatirəsi işığında qardaşı şair Malik Əhmədoğlunun yaradıcılığına həsr olunmuşdu.

Tədbiri giriş sözü ilə kitabxananın müdiri şairə Zəminə Xınalı açdı, Aprel şəhidlərinin hünərindən danışdı. Habelə 1993-cü ilin aprelində doğma Cəbrayılda şəhid olmuş Söhrab Məmmədovun qısa və şərəfli ömür yolu haqda məlumat verdi. Bildirdi ki, bu günkü görüşdən məqsəd həm də apreldə şəhid olmuş Söhrabın xatirəsi işığında onun qardaşı Malik Əhmədoğlunun 55 illiyi münasibətilə vətənpərvərlik ruhlu yaradıcılığına həsr olunub.

Tədbirdə çıxış edən fəlsəfə doktoru Tariyel Abbaslı gənclik illərində təyinatla Malik Əhmədoğlunun doğulduğu Dağtumas kəndində müəllim işlədiyi dövrü xatırladtı və füsunkar təbiətə malik olan bu kənddən Söhrab kimi vətənpərvər oğullar çıxdığını və özünü vətən yolunda fəda etdiyini, Söhrabın qardaşı Malik Əhmədoğlu kimi söz adamı çıxdığını da təbitətin, doğulduğu yurdun əsrarəngiz gözəlliyi ilə bir arada qovuşuq vəhdət təşkil etdiyini söylədi.

Filologiya üzrə fəlsəfə doktoru Tahir Şirvanlı Malik Əhmədoğlu yaradıcılığı haqda geniş məruzə etdi.

Şair Sabir Şirvan qələm dostunun şeirlərindən bəhs açdı, onun bir neçə bayatısına deyişmə üslubunda nəzirələr söylədi...

"Sarı Aşıq" ədəbi məclisinin sədri şair Adil Cəfakeş də Malik Əhmədoğluna həsr etdiyi aşağıdakı şeirini oxudu:

**Hər kəlməsi şeiriyyətdi,**
**Başdan -başa sözdü Malik.**
**Misraları mirvaritək**
**Kağızlara düzdü Malik.**

**Axıdaraq alın təri,**
**Yazdı xeyri, yazdı şəri.**
**Çox dolaşıq fikirləri**
**Misra-misra çözdü Malik.**

**Əsəbləşdi, əsdi, sovdu,**
**Böhtan ilə şəri qovdu.**
**Bir atəşdi, bir alovdu,**
**Özü boyda közdü Malik.**

**Baxıb gördü, həm götürdü,**
**Həm qazandı, həm itirdi.**
**Düz otuz il tab gətirdi,**
**Yurd dərdinə dözdü Malik.**



**Çəfakeşə verin izin,**
**Qoy söyləsin sizə düzün.**
**Gülşəninə girib sözün**
**Lap gözəlin üzdü Malik.**

Tədbirdə bu sətirlərin müəllifi olan mən Şakir Əlifoğluna da söz verildi. Mən Malikin şəhid olan qardaşı Söhrabın 1993-cü ilin 29 martında tankdan açılan atəşlə ağır yaralandığı dövrü xatırladıb, bildirdim ki, o vaxt onu Cəbrayıl rayon Mərkəzi Xəstəxanasına gətirdilər. Rayonun baş həkimi Hüseyn Əhmədov və tibb personalı ağır yaralanmış Söhraba iynə, dava-dərman edirdilər. Mən o ağır mənzərənin şahidi idim. Çoxlu yerdən ağır yaralansa da, Söhrab kişilik qürurunu o ağır məqamlarda da qoruyur, canını dişinə sıxıb ağlamırdı, ancaq ufultu içində "həkim, keyləşdirici iynə vurun ki, ağrımasın" deyirdi. Söhrabı daha sonra Füzulinin Qaraxanbəyli kəndindəki qospitala götürdülər. Bu qürurlu, igid oğlan 3-4 gün ölümlə çarpışsa da, amansız ölüm ona güc gəldi. Aprelin 1-də şəhidliyə qovuşdu. Bax bizim Malik Əhmədoğlu belə bir qürurlu şəhidin qardaşıdır və bizim onun yaradıcılığından izlədiyimiz vətənpərvərlik ruhlu şeirləri də məhz onun canından - qanından gəlir. Malik Əhmədoğlunun şəhid mövzusundakı şeirləri də öz ailəsində, doğmaları içərisində verdiyi şəhidlərlə bağlı çəkdiyi acılardan yoğrulub.

Tədbirdə şairlərdən, söz aşiqlərindən Şərqiyyə Süleymanlı, Əzizə Ağahüseynqızı, Qəzənfər Məsimoğlu, Sədaqət Şıxlı, İldırım Əlişoğlu, Elmira Aslanxanlı, Rəşid Vəkil, Manaf Yaquboğlu, "Azərbaycan Ordusu" qəzetinin xüsusi müxbiri Hüsniyyə İdrisova və başqaları iştirak və çıxış etdilər. Şəhid Söhrab Məmmədovun xatirəsini andılar və qardaşı şair Malik Əhmədoğlunun 55 illiyi işığında qələm dostları haqqında fikir və mülahizələrini bölüşdülər.

Söz Malik Əhmədoğluna verildi. O, yeni yazdığı şeirlərdən bir neçə nümunə səsləndirdi, iştirakçılara təşəkkürlərini çatdırdı.

Müğənni qızlar vətənpərvərlik ruhlu mahnılar ifa etdilər və sonda xatirə şəkilləri çəkildi.

**Ş. Albalıyev**

---

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti rayon polis şöbəsinin rəisi Toğrul Mahmudova, əmisi Mahmudov Elbrus Əhməd oğlunun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti Qocayev Vasif İbiş oğlunun**
vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

---

"Xudafərin" qəzetinin baş redaktoru Şakir Albalıyev ailə üzvləri ilə birlikdə tərcüməçi-publisist Zəncanlı Səhra xanım Rzayiyə, anası **Cəmilə xanımın** vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti Quliyev Hüsən Saybalı oğlu, Səfərova Gülnarə Əli qızı, Mikayılova Fatma Məhi qızı və Mirimov Məmiş Eyvazalı oğlunun**
vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ27IIB410100C9443130139112**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet “Xudafərin” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 1127**
**Tiraj: 2000**